Əkin sahəsində seminar-müşavirə

Qarşıdan gələn dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövrünü nəzərə alaraq yanğın hadisələrinin baş verməməsi məqsədi ilə 20 iyun 2022-ci il tarixində Qəbələ şəhər ərazisində yerləşən əkin sahəsində açıq hava şəraitində seminar-müşavirə keçirilmişdir. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin rəis müavini daxili xidmət polkovniki Vaqif İbrahimov və şöbə rəisi daxili xidmət polkovnik-leytenantı Cəmil Xudiyevin iştirakı ilə keçirilən müşavirədə Qəbələ rayon İcra Hakimiyyətinin, Polis Şöbəsinin, Qəbələ Regional Meşə Təsərrüfatı Mərkəzinin, Aqrar İnkişaf Mərkəzinin, Dövlət Aqroservis ASC-nin əməkdaşları, inzibati ərazi dairəsi üzrə nümayəndələr və bələdiyyə sədrləri, eləcə də taxılçılıqla məşğul olan təsərrüfat sahibləri iştirak etmişlər. Seminar-müşavirədə yanğından mühafizə məqsədilə müzakirələr aparılmışdır.

Baramaçılığın inkişafına xüsusi diqqət

Cari mövsümdə Qəbələ rayonunda barama yetişdirilməsi ilə əlaqədar 70 kümçü ilə müqavilə bağlanılmış, onlara 280 qutu, yəni 4.92 kiloqram ipəkqurdu paylanılmış və bu sahədə 120-dən çox kənd sakininin məşğulluğu təmin olunmuşdur. İpəkqurdunun yemləndirilməsi təlimata uyğun aparılmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Nic qəsəbəsində kümçü ailələri ilə görüşmüş, barama qurdunun saxlanılması üçün yaradılan şəraitlə tanış olmuş, onları narahat edən problemlərlə maraqlanmış, aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Kəndlərarası yolların yenidənqurma işləri davam edir

Azərbaycan Respublikası Prezidentinin 17 may 2021-ci il tarixli Sərəncamı ilə tikintisinə başlanılmış yeddi min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağdaş-Zarağan (40 km) Böyük Pirəli - Kiçik Pirəli - Xırxatala - Cığatelli - Həmzəli avtomobil yolunda yenidənqurma işləri davam etdirilir. Kəndlərarası avtomobil yollarının yenidən qurulması gediş-gəlişin asanlaşmasına səbəb olacaq, kənd təsərrüfatının inkişafına, həmçinin ərazidə turizm imkanlarının genişlənməsinə şərait yaradacaq. Bu da əhalinin sosial rifah halının yaxşılaşmasına müsbət təsir edəcəkdir.

Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü qeyd olundu

Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü münasibəti ilə Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələrinin, Suvarma Sistemləri idarəsinin kollektivinin iştirakı ilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları öncə Ümumilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər. Tədbirdə çıxış edən Suvarma Sistemləri İdarəsinin rəisi Qüdrət Həmidov Ulu öndərin meliorasiya və su təsərrüfatının inkişafına göstərdiyi diqqətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamış, hazırda respublikada geniş suvarma sistemlərinə, kollektor-drenaj şəbəkələrinə malik meliorasiya və su təsərrüfatı komplekslərinin fəaliyyət göstərdiyini qeyd etmişdir. Sonda uzun illər səmərəli fəaliyyətini və vəzifə öhdəliklərini layiqincə yerinə yetirdiyinə görə idarənin bir qrup işçisinə fəxri fərmanlar təqdim olunmuşdur.

Vətən müharibəsi iştirakçısının valideyni əlil arabası ilə təmin edilmişdir

Vətən müharibəsi iştirakçısı Abbasov Xəzər Fərhad oğlu Qəbələ Rayon İcra Hakimiyyətinə müraciət edərək xəstə anasının əlil arabası ilə təmin edilməsinə köməklik göstərilməsini xahiş etmişdir. Vətəndaş rayon icra hakimiyyətinin nümayəndələri tərəfindən qəbul edilmiş, onunla söhbət aparılmışdır.

Onun anası Abbasova Aytəkin Səftər qızı əlil arabası ilə təmin edilmişdir.

AMEA-nın Coğrafiya İnstitutunun kollektivi Qəbələdə

AMEA-nın Həsən Əliyev adına Coğrafiya İnstitutunun kollektivi Qəbələ Dövlət Tarix-Bədii Qoruğunu və Qəbələ Arxeoloji Mərkəzi ziyarət ediblər. Arxeoloji Mərkəzdə keçirilən tədbirdə çıxış edən qoruğun direktoru Zahir Kərimov Qəbələ Dövlət Tarix-Bədii Qoruğu, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkilatçılığı və maliyyə dəstəyi ilə yaradılmış Qəbələ Arxeoloji Ekspedisiyası üzvlərinin iştirakı ilə burada aparılan arxeoloji qazıntılar, aşkar olunan tarixi tapıntılar haqqında ətraflı məlumat vermiş, Coğrafiya İnstitutu ilə qarşılıqlı əməkdaşlıq və informasiya mübadiləsinin aparılmasını təklif etmişdir. Tədbirdə çıxış edənlər qədim Qəbələ şəhərinin tarix, arxeologiya ilə yanaşı, coğrafiya və geologiya elm sahələrinə də töhfələr verdiyini vurğulamışlar.

Təbrik edirik

13-19 iyun 2022-ci il tarixlərində Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən yeniyetmələr arasında Sərbəst və Yunan-Roma güləşi üzrə (U-17) Avropa Çempionatında Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin məşqçi-müəllimi Fərid Mustafayevin rəhbərliyi ilə bir nəfər idmançımız iştirak etmişdir.

İdmançımız Axundov Şəmistan Kərəm oğlu 80 kq çəki dərəcəsində Avropa 3-cüsü adını qazanmışdır.

İdmançımızı və məşqçi-müəllimi təbrik edir, onlara daha böyük uğurlar arzu edirik.

QƏBƏLƏ
Qəbələ rayonunun İctimai-siyasi qəzeti
qəzetinə
2022-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

İTMİŞDİR

Əliverdiyev Yuddin Əliverdi oğluna məxsus 10 TS 408 qeydiyyat nişanlı minik maşınının **qeydiyyat şəhadətnaməsi** və **Əliverdiyev Aydın Əbülhəsən oğluna** məxsus **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən **Paşabəyli Hikmət Bəylər oğluna** məxsus reyestr nömrəsi: 406013062369 nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1400